

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 24 (22.935)

6 fevral 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının V qurultayında iştirak edən beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqlarının nümayəndə heyətinin bir qrupunu qəbul edib.

Qonaqları ölkəmizdə salamlayan və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının qurultayında iştirak etdiklərinə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev vurğulayıb ki, bu, beynəlxalq və xarici ölkələrin həmkarlar ittifaqları ilə Azərbaycan həmkarlar ittifaqları arasında sıx qarşılıqlı fəaliyyəti, həmrəyliyi göstərir. Dövlətimizin başçısı bu sahədə qarşıda duran məsələlərin hamı üçün eyni olduğunu bildirərək əminliyini ifadə edib ki, qurultayda müzakirə edilən məsələlər və qəbul olunacaq qərarlar ölkəmizin uğurlu inkişafına öz töhfəsini verəcək.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev rəhbərlik etdiyi qurumun yaranmasının 25 illiyi münasibətilə medalın təsis olunduğunu bildirib və bu qurumun İcraiyyə Komitəsinin qərarı ilə həmkarlar təşkilatlarının fəaliyyətinin inkişafına verdiyi dəstəyə görə ilk medalı Prezident İlham Əliyevə təqdim edib.

"Türk-İş" Həmkarlar İttifaqları Konfederasiyasının baş direktoru Ergün Atalay da dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edib.

## Gənclər Paytaxtının rəmzi açarı Naxçıvana təqdim edilib



*Fevralın 2-də Azərbaycan Gəncləri Günü münasibətilə Bakı şəhərindəki "Buta Palas"da təntənəli tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti də iştirak edib. Naxçıvan şəhərinin 2018-ci il üçün Azərbaycanın Gənclər Paytaxtı seçildiyi elan olunub. Bildirilib ki, muxtar respublikanın paytaxtı www.genclerpaytaxti.az saytında keçirilmiş onlayn səsvermənin qalibi olub.*

Azərbaycan Respublikası gənclər və idman naziri Azad Rəhimov Gənclər Paytaxtının rəmzi açarını Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarova təqdim edib.

Tədbirdə çıxış edən Azad Cabbarov muxtar respublikada gənclər sahəsində görülən işlərdən danışıb, bu istiqamətdə həyata keçirilən dövlət siyasətindən bəhs edib. Muxtar respublikanın gənclər və idman naziri qeyd edib ki, ümummilli lider Heydər Əliyev ideyalarını, milli dəyərləri rəhbər tutan Naxçıvan gəncləri 2018-ci ildə yaradılmış bu tarixi imkanlardan səmərəli istifadə edəcək, ölkəmizin və Naxçıvan şəhərinin beynəlxalq miqyasda ən yaxşı şəkildə təmsil olunmasına çalışacaqlar. Bu il İslam Mədəniyyətinin Paytaxtı olan Naxçıvan Azərbaycanın Gənclər Paytaxtı kimi də, öz üzərinə düşən missiyanı layiqincə yerinə yetirəcəkdir.

Sonra Naxçıvan televiziyasının hazırladığı muxtar respublikanın möhtəşəm görüntülərini əks etdirən videoçarx təqdim edilib.

Tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları və gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər.

Tədbir bədii hissə ilə davam edib.

## Ordu quruculuğu sahəsində görülən işlər mühüm əhəmiyyəti ilə seçilir

***Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial sahədə qazanılmış nailiyyətlər ordu quruculuğunda da uğurların qazanılmasına imkan verir.***

Belə ki, muxtar respublika ərazisində yerləşən hərbi hissələrin maddi-texniki təminatı davamlı olaraq möhkəmləndirilir, ordumuz ən müasir silahlarla təchiz olunur, şəxsi heyətin döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı artırılır. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər 2017-ci ildə də uğurla davam etdirilib.

Ötən il Naxçıvan şəhərində Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzi istifadəyə verilib, mərkəzi hərbi xəstəxananın, tibb, texniki qulluq və texniki nəzarət məntəqələrinin, avtomobil dayanacağının, anqarın tikintisi davam etdirilib. Bundan əlavə, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında infrastruktur obyektlərinin tikintisi başa çatdırılıb, sərhəd diviziyasında yaşayış binasının, Qaraçuq kəndi ərazisində sərhəd nəzarət məntəqəsinin inzibati binasının yenidən qurulması, Şərur rayonunda "N" hərbi hissədə infrastruktur obyektlərinin, Babək rayonunda qərargah binasının və texniki istismar hissəsinin tikintisi davam etdirilib. Eyni zamanda Şərur rayonunda qərargah binasının, əsgər yeməkxanasının və əsgər yataqxanasının, Babək rayonunda anqarın tikintisi başa çatdırılıb, Culfa rayonunda dörd, Şahbuz rayonunda üç anqarın tikintisi davam etdirilib.

Qeyd edək ki, muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər mahiyyət etibarilə ötən il daha böyük əhəmiyyət daşıyıb. Belə ki, 2017-ci il oktyabrın 18-də – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən hərbi parad hər kəsin yaddaşında dərin iz buraxıb. Paradda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı Əlahiddə Ümumqoşun Ordusunun, birləşmə və hissələrinin 2 minə yaxın şəxsi heyəti, 160-dan çox hərbi texnika və silah sistemləri, o cümlədən 10-dan artıq döyüş vertolyotu və təyyarəsi iştirak edib. Bu möhtəşəm tədbir müxtəlif xarici ölkələrin mətbuatında da işıqlandırılıb. Əlahiddə Ümumqoşun Ordunun 2017-ci ildə hazırlıq planına əsasən görülən işlərin nəticələrinə, döyüş və ictimai-siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülməsi də ötən ilin əhəmiyyətli uğurlarındandır.

**Xəbərlər şöbəsi**

## Pensiyaların poçt bölmələri tərəfindən ödənilməsi üçün müvafiq tədbirlər görülmüşdür

Muxtar respublikada sığorta-pensiya sisteminin təkmilləşdirilməsi istiqamətində görülən işlər nəticəsində Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanlarında müasir standartlara cavab verən avtomatlaşdırılmış iş yerləri yaradılıb. Sığorta-pensiya sisteminin yüksək səviyyədə qurulması əhalinin bu sistemin üstünlüklərindən maksimum yararlanmasına imkan verib.

Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2017-ci il 30 dekabr tarixdə keçirilmiş yeddinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən pensiyaçıların istəkləri nəzərə alınmaqla kənd yerlərində pensiyaların poçt bölmələri vasitəsilə ödənilməsi üçün Dövlət Sosial Müdafiə Fonduna Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birlikdə aidiyyəti işlərin həyata keçirilməsi barədə müvafiq tapşırıqlar verilib.

Həmin tapşırığın icrası məqsədilə Dövlət Sosial Müdafiə Fondunun rayon şöbələri ilə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin yerli poçt bölmələri arasında müqavilələr imzalanıb. Bundan sonra kənd yerlərində yaşayan pensiyaçıların istəklərinə əsasən onlar öz pensiyalarını rayon mərkəzlərinə getmədən, əlavə vaxt itirmədən və vəsait sərf etmədən həmin yaşayış məntəqələrindəki poçt bölmələrindən ala bilərlər. Bunun üçün kənd yerlərində yaşayan pensiyaçılar istədikləri halda Dövlət Sosial Müdafiə Fondunun müvafiq rayon şöbələrinə və "Naxçıvanpoçt" MMC-nin yerli poçt bölmələrinə müraciət edə bilərlər.

Sığorta-pensiya sistemində həyata keçirilən tədbirlər çərçivəsində pensiyaların ödənilməsində mütərəqqi forma və metodların tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Bu gün pensiyaların həm plastik kartlarla, həm də poçt şöbələri vasitəsilə ödənilməsi xidmət səviyyəsinin daha da yüksəldilməsinə və kənd yaşayış məntəqələrinin sakinləri olan pensiyaçıların rahatlığının təmin olunmasına hesablanıb.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

## "Səhiyyənin aktual problemləri" mövzusunda elmi-praktik konfrans



***Naxçıvan Muxtar Respublika Xəstəxanasında "Səhiyyənin aktual problemləri: pediatrik, psixiatrik, nevroloji, cərrahi, neonatoloji aspektləri" mövzusunda elmi-praktik konfrans keçirilib. Elmi forumun işində paytaxt Bakı şəhərinin səhiyyə ocaqlarının yüksəkixtisaslı mütəxəssisləri və muxtar respublika tibb müəssisələrinin həkimləri iştirak ediblər.***

Konfransı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva bildirib ki, bu gün muxtar respublikamızda müasir xəstəxanalar, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri və digər səhiyyə müəssisələri istifadəyə verilir, uşaqların və hamilə qadınların sağlamlığına xüsusi diqqət yetirilir. Natiq gələcəyimiz olan uşaqlara xidmət edən tibb müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsinin, onların müasir tibbi avadanlıqlarla təchiz edilməsinin pediatrik xidmətin səviyyəsinin yüksəlməsinə səbəb olduğunu vurğulayıb. Qeyd edib ki, muxtar respublikada uşaqların icbari dispanserizasiyası, elektron sağlamlıq kartlarının verilməsi, həkim briqadalarının ucqar dağ kəndlərində uşaqları müayinə etmələri, yoluxucu xəstəliklərə qarşı peyvəndlərin vurulması və digər mühüm sağlamlıq tədbirləri daim diqqət mərkəzində saxlanılır.

Azərbaycan Tibb Universitetinin Psixiatriya kafedrasının mütəxəssisi, Uşaq psixi sağlamlıq və inkişaf mərkəzinin həkim-psixiatrı, tibb elmləri üzrə fəlsəfə doktoru İkram Rüstəmov ölkəmizdə səhiyyə sahəsinə göstərilən diqqətin, əhalinin sağlamlığının qorunması istiqamətində görülən mühüm tədbirlərin insanların həyat keyfiyyətinin yüksəlməsinə önəmli təsir göstərdiyini qeyd edib. O, elmi forumun yeni müayinə və müalicə üsullarının tətbiqi sahəsində əldə edilən nailiyyətlərin diqqətə çatdırılması və qazanılan təcrübənin mübadiləsi baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Azərbaycan Tibb Universitetinin I Uşaq xəstəlikləri kafedrası, Uşaq psixi sağlamlıq və inkişaf mərkəzinin həkim-pediatrı, tibb elmləri üzrə fəlsəfə doktoru Nigar Sadiyeva "Peyvəndlər: müasir yanaşma" mövzusundakı çıxışında bildirib ki, vaksinasiya hər il 3 milyon uşaq ölümünün, 750 min uşağın əlil olmasının qarşısını alır. Qızılca, məxmərək, vərəm kimi infeksion xəstəliklərin qarşısını almaq üçün uşaqlara peyvəndlərin vurulması vacibdir.

Yüksəkixtisaslı həkimlər "Bakı Medical Plaza" Klinikasının Neonatologiya şöbəsinin müdiri Erkin Rəhimov "Yenidoğulmuşlarda sarılıqlar", "Bakı Medical Plaza" Klinikasının həkimi Aqil Abilov "Uşaq cərrahiyyəsində aktual problemlərə yanaşma", Uşaq psixi sağlamlıq və inkişaf mərkəzinin uşaq nevropatoloqu Rima İbadova "Autizm-nevroloq gözü ilə" mövzularında çıxış ediblər.

Konfransda məruzələr ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

***

Elmi-praktik konfransda iştirak edən yüksəkixtisaslı həkimlər fevralın 3-4-də Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında humanitar tibbi aksiya keçirərək tibbi müayinələr aparıblar.

Aksiya zamanı uşaqlar müxtəlif tibbi müayinələrlə əhatə ediliblər. Yerli şəraitdə diaqnozu aydın bilinməyən xəstələrin diaqnozu müəyyənləşdirilib, dispanser qeydiyyatına götürülüb, onların sonrakı müalicəsinə göstərişlər verilib.

Muxtar respublikanın Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə 2 gün davam edən aksiyada 429 uşaq tibbi müayinə olunub. Bu cür aksiyaların təşkili balaca pasiyentlərin valideynləri tərəfindən minnətdarlıqla qarşılanıb.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

*Şəhərləşən kəndlərimiz*

## Muxtar respublikanın müasir yaşayış məntəqələri xəritəsində yeni ünvan

# Dizə

***Muxtar respublikamızın inzibati xəritəsində "Dizə" toponimi ilə adlanan bir neçə yaşayış məntəqəsi var. Bu kəndlərin böyük əksəriyyətinə regionda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərindən pay düşüb, həmin yaşayış məntəqələri müasir Azərbaycan kəndinə çevrilib. Cari ildə Culfa rayonunun Dizə kəndi də bu sıraya qoşulub. Daha dəqiq desək, 2018-ci ildə yanvar ayının 15-də, qarlı bir qış günündə bu yaşayış məntəqəsində bir sıra sosial obyektlərin açılışı olub. Belə ki, burada yeni məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilib.***




Naxçıvan-Ordubad magistralının Culfa rayonunun Yaycı kəndi ərazisindən sola ayrılaraq Dizəyə gedən 8,9 kilometr yol yenidən qurulub, yol yatağı genişləndirilib, asfalt örtük salınıb, ehtiyac duyulan yerlərdə su keçidləri qoyulub, beton kanal çəkilib, 5,8 kilometr yol hamarlanaraq qum-çınqıl qatı verilib. Bütün bunlar avtomobillərin, nəticə etibarilə, sərnişinlərin təhlükəsiz hərəkətini təmin edib. Bu yoldan həm də Gal və Şurud kəndləri sakinlərinin istifadə etdiklərini də xatırlasaq, görülən işin necə böyük əhəmiyyət daşıdığını təsəvvür etmək heç də çətin olmaz. Kənddə quruculuq işləri aparılarkən 380 metr fiber-optik kabelin, 1700 metr yüksəkgərginlikli və müxtəlif həcmlərdə yeraltı elektrik, yeni içməli su xəttinin çəkilməsi, 5503 metr elektrik xəttinin yenilənməsi bu sahələrdəki çətinlikləri aradan qaldırıb. 5000 metr rabitə, 4408 metrlik qaz, 1340 metr içməli su xəttinin təmir olunması, həyətyanı sahələri sel sularının zərərli təsirindən qorumaq üçün 600 metr istiqamətləndirici bəndin tikilməsi dizəlilər tərəfindən onlara göstərilən dövlət qayğısı kimi dəyərləndirilir.

Məlumat üçün bildirək ki, bu yaşayış məntəqəsində 371 təsərrüfatda 1319 sakin yaşayır. Kənd adamları müxtəlif təsərrüfat sahələrində çalışır, məhsul bolluğu yaratmağa səy göstərir, daxili bazara töhfələrini verirlər. Torpağı halal qazanc mənbəyinə çevirən dizəlilərin həyat səviyyəsi gündən-günə yüksəlir, rifah halı daha da yaxşılaşır. Bunun nəticəsidir ki, hər il kənddə yeni fərdi evlər inşa olunur, şəxsi minik avtomobillərinin sayı artır.

Hələ kəndə çatmamış uzaqdan diqqəti cəlb edən üçmərtəbəli yeni məktəb binası Dizə kəndinə xüsusi yaraşıq gətirib. Təhsil ocağında müasir tədrisin tələblərinə uyğun şərait yaradılıb, elektron lövhələr, kompüterlər və digər müasir tədris avadanlıqları quraşdırılıb. Yaşayış məntəqəsinin gələcək perspektivi nəzərə alınaraq inşa edilən 234 şagird yerlik məktəbdə hazırda 140 şagird təhsil alır. Üçü elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, şahmat və kompüter sinifləri, kitabxana, müəllimlər otağı, hərbi kabinə, idman zalı, bufet müəllim və şagirdlərin ixtiyarına verilib. Bir sözlə, təhsilin müasir standartlar səviyyəsində qurulması, vətənpərvər və savadlı gənclər yetişdirmək üçün məktəbdə hər bir şərait yaradılıb.

– Bu, muxtar respublikada insan amilinə qayğının daha bir ifadəsidir, – deyən məktəbin direktoru Əli Əliyev pedaqoji kollektiv adından onlar üçün yaradılan belə şəraitə görə minnətdarlığını bildirir, məktəbin açılış mərasimindən sonra müəllimlərlə görüşən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyələrini fəaliyyət proqramı kimi qəbul etdiklərini diqqətimizə çatdırır. Həmin görüşdə Ali Məclisin Sədri deyib: ***"Yeni ildə ilk məktəb binası Dizə kəndində istifadəyə verilir. Hansı ölkədə təhsil inkişaf edirsə, həmin ölkənin bütün sahələrində inkişaf təmin olunur. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, "Hər bir ölkənin, hər bir millətin aparıcı qüvvəsi onun təhsilidir". Həqiqətən də, bütün sahələrdə inkişafı təmin etmək, yaxşı mütəxəssis hazırlamaq istəyiriksə, onda gənc nəslə yaxşı təhsil verməliyik. Təhsilin əsası da orta məktəblərdə qoyulur. Ona görə də Dizə kənd tam orta məktəbində şagirdlərin təhsilinə ciddi diqqət yetirilməli, onlar bacarıq və həvəslərinə uyğun ixtisaslara, müxtəlif peşə sahələrinə yönləndirilməlidirlər. Məktəbdə bu tədbirlərin həyata keçirilməsi üçün lazımi şərait yaradılıb".***

Valideyn Sənan Tağıyev deyir ki, pedaqoji kollektiv öz işinin öhdəsindən gəlməyə səy göstərir. Sevinirik ki, övladlarımıza yaxşı bilik vermək üçün müəllimlər öz bacarıqlarını əsirgəmirlər. Bunun üçün məktəb hər cür imkanlara malikdir. Bu isə o deməkdir ki, dövlətimiz təhsilə qayğını özünün başlıca vəzifələrindən biri hesab edir.

Öyrənirik ki, cari tədris ilində birinci sinifdə 14 şagird təhsil alır. 12 uşaq isə məktəbəqədər hazırlıq qrupuna qəbul olunub. 2017-2018-ci tədris ilində məktəbi 12 məzun bitirəcək. Test-sınaq imtahanlarında, fənn olimpiadalarında, müxtəlif bilik yarışlarında əldə edilən nəticələr ürəkaçandır və bu, məzunların onlara göstərilən etimadı doğruldacaqlarına inam yaradır.

Təhsil ocağında şagirdlərin hərb sənətinə marağının artırılmasına ciddi önəm verilir. Hərbi kabinədə yaradılmış şərait bu fənnin daha yüksək səviyyədə tədrisinə imkan yaradıb. Onu da qeyd edək ki, məktəbdə hərbi-vətənpərvərlik tərbiyəsinin düzgün formalaşdırılması üçün müxtəlif hərbi-idman oyunlarının keçirilməsi davamlı xarakter alıb. Bu məktəbin məzunu olan Sənan Cəfərov şəhidlik zirvəsinə ucalıb. Onun şərəfli ömür yolu bugünkü dizəli məktəblilərə bir örnək kimi göstərilir.

3158 kitab fondu olan kitabxanada oxunması zəruri olan kitablardan ibarət guşə yaradılması şagirdlərin mütaliə mədəniyyətinin düzgün formalaşdırılmasında mühüm amillərdən biridir. Kitabxanada hər ay məktəbli oxucular üçün kitab müzakirələrinin, disputların təşkili nəzərdə tutulub.

Şagirdlərin müasir informasiya-kommunikasiya texnologiyaları ilə işləmək bacarığını düzgün formalaşdırmaq üçün muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlərdən bu təhsil ocağına da pay düşüb. Belə ki, məktəbdə 19 kompüter quraşdırılaraq internetə qoşulub. Kimya, biologiya və fizika laboratoriyalarında yaradılan şərait də həmin fənlərin tələb olunan səviyyədə tədrisinə imkan verir. Adıçəkilən fənlər üzrə dərs deyən müəllimlər yeni tədris üsullarına geniş yer verirlər.

Məktəbin müəllimi Zəhra İsgəndərova deyir ki, bu gün qədim Naxçıvan torpağının bütün yaşayış məntəqələrində geniş quruculuq işlərinin aparılması davamlı xarakter alıb. Təhsil quruculuğu sahəsində görülən işlər isə həmin tədbirlərin əsasını təşkil edir. Dizə kənd tam orta məktəbi üçün yeni və müasir binanın tikilərək istifadəmizə verilməsi muxtar respublikada təhsilə göstərilən davamlı qayğının bariz nümunəsidir. Heç şübhəsiz ki, bu şərait kollektivimizin qarşısında mühüm vəzifələr qoyub, məsuliyyətimizi daha da artırıb. Çalışacağıq ki, bundan sonra daha sayıləyək, vətənpərvər və yüksək biliyə malik gənclər yetişdirək.

Həmin gün dizəlilər həm də yeni kənd mərkəzinin açılış sevincini yaşayıblar. Kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə, rabitə evi, feldşer-mama, polis sahə və baytarlıq məntəqələri, kitabxana, klub, statistika otağı və 42 yerlik iclas zalı vardır. Dizəlilər buradakı kitabxanada olan 6877 kitabdan istifadə etmək imkanı qazanıblar.

Yeni kənd mərkəzi sakinlərin müasir rabitə xidmətindən istifadəsini yaxşılaşdırıb. Rabitə evində poçt bölməsi və 384 yerlik ATS quraşdırılıb, sürətli internetə çıxış imkanı yaradılıb, dayanıqlı rabitə xidməti təmin olunub. Hazırda kənddə 192 telefon və 48 internet istifadəçisi vardır.

Sakinlərə göstərilən səhiyyə xidmətinin səviyyəsini yüksəltmək məqsədilə kənd mərkəzində feldşer-mama məntəqəsi üçün otaqlar ayrılıb. Burada ilkin tibbi xidmətin göstərilməsi üçün lazımi avadanlıqlar, ilkin tibbi yardım və peyvənd çantaları qoyulub. Kəndin ən yaşlı qadın sakini Sara İbrahimova deyir ki, yaşımın bu vaxtında, elə bil, cavanlaşmışam. Çünki heç vaxt kəndimizi belə görəcəyimi ağlıma gətirməzdim. Eşidəndə ki, Dizədə tikinti işləri başlanılıb, inanmadım. Ancaq indi görürəm ki, dövlətimiz öz insanlarına qayğı göstərməyi özünün borcu sayır. Sevinirəm ki, artıq uşaqlarımız gözəl məktəbdə oxuyur, xırda bir işdən ötrü rayona, qonşu Yaycı kəndinə getməyə ehtiyac qalmayıb. Sağ olsunlar bu şəraiti yaradanlar.

Dizədə kompleks quruculuq tədbirləri çərçivəsində həyata vəsiqə alan obyektlərdən biri də xidmət mərkəzidir. Burada bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və sənaye malları mağazaları, 2 anbar fəaliyyət göstərir. Mağazada kənddə fəaliyyət göstərən ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların satışına daha çox üstünlük verilir.

Kənd sakini Əhməd Bağırov ömrünün doqquzuncu onilliyini yaşayır. O deyir ki, Dizə kəndi rayonun qədim yaşayış məntəqələrindən biridir. Ancaq 70 illik sovet dönəmində burada gözəçarpacaq bir bina tikilməyib. Kəndin idarə və təşkilatları uyğunlaşdırılmış tikililərdə fəaliyyət göstəriblər. Bu gün yolumuz yenidən qurulub, məktəb üçün yeni bina inşa olunub, kənddə hər bir evə içməli su xətti çəkilib. Elektrik enerjisi və təbii qazdan fasiləsiz olaraq istifadə edilir. Dizəlilər torpağa, zəhmətə bağlı adamlardır. Öhdələrində kifayət qədər pay torpaqları var. Bizə yaradılan şəraitdən səmərəli istifadə etməyə çalışırıq ki, buna əməli işimizlə cavab verək.

...Yeni obyektlər istifadəyə verilən gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Dizə kəndinin abad yaşayış məntəqələrinin sırasına qoşulması münasibətilə kənd sakinlərini təbrik edərək deyib: ***"2018-ci ildə muxtar respublikanın ilk abadlaşan yaşayış məntəqəsi Dizə kəndi oldu. Aparılan quruculuq işləri Dizə kəndini müasir yaşayış məntəqəsinə çevirmişdir. Kənddə sakinlərin rahat yaşayışı tam təmin olunub. Dizə kəndinin məhsuldar torpaqları, zəhmətkeş insanları və yaxşı təsərrüfat ənənələri vardır. Həyata keçirilən bu tədbirlər bundan sonra da kəndin inkişafına töhfə verəcəkdir. Sakinlər yaradılan bu şəraitdən istifadə edərək təsərrüfatlarını daha da genişləndirməli, torpaqlardan səmərəli istifadə olunmalı, bol məhsul istehsal edilməlidir".***

*Bu gün Dizə kəndi muxtar respublikanın müasir yaşayış məntəqələri xəritəsində yeni ünvandır. Yeni ünvan isə kənd adamları qarşısında yeni üfüqlər açıb, yeni vəzifələr qoyub. Dizəlilər həmin vəzifələrin öhdəsindən gəlməyə səy göstərir, yeni uğurlar qazanmaq üçün çalışırlar.*

**Muxtar MƏMMƏDOV**

---

*Ailə təsərrüfatları*

## Bol məhsul əldə etmək üçün zəhmət çəkməyi bacarmalısan

***Əhalisinin əksəriyyətinin kəndlərdə məskunlaşdığı muxtar respublikamızda aqrar sahənin inkişafı diqqət mərkəzindədir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin məqsədi əhalini keyfiyyətli yerli məhsullar ilə təmin etmək, bununla da regionun inkişaf tempini artırmaqdır. Təsərrüfat sahiblərinə dövlət tərəfindən güzəştli kreditlərin verilməsi ömrünü bu sahəyə bağlayanlara böyük stimul olub. Nəticədə, son illərdə kənd yerlərində əkilən sahələrin ərazisi xeyli genişlənib, bir çoxları ailə təsərrüfatı yaradıb. Ötən il noyabrın 18-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində təşkil olunan "Ailə təsərrüfatı məhsulları" festivalında bu amil özünü qabarıq şəkildə büruzə verdi.***

Ümumiyyətlə, son illər ərzində Naxçıvanın bütün bölgələrində aqrar sahə ilə məşğul olanların sayı xeyli artıb. Əkinəyararlı münbit torpaq sahələri bol olan Babək rayonunda da qurulan belə təsərrüfatlar kifayət qədərdir. Ötən günlərdə yolumu rayonun ən böyük yaşayış məntəqəsi sayılan Nehrəm kəndindən saldım. Müşahidəmə əsaslanaraq deyə bilərəm ki, buranın sakinləri torpağa qırılmaz tellərlə bağlıdırlar. Elə dolanışıqlarını da əkin-biçinlə məşğul olub, mal-qara saxlamaqla əldə edirlər. Kənddə yeni təsərrüfat sahələrinin yaradılması sakinlərin işsizlik problemini də aradan qaldırıb. Təsərrüfat sahiblərindən Cəmşid Həsənov bizimlə söhbətində dedi ki, dövlət qayğısı nəticəsində yaradılan əlverişli imkanlar hesabına təsərrüfat qurub. Artıq bir neçə ildir ki, torpaq icarəyə götürüb əkin-biçinlə məşğul olur, əldə olunan gəlir hesabına ailəsinin gün-güzəranını yaxşılaşdırır. Ona məxsus olan torpaq sahəsində taxıl, bostan və tərəvəz məhsulları yetişdirən müsahibimin dediklərindən:

– İcarəyə götürdüyüm ərazidə, əsasən, pomidor əkini aparıram. Təsərrüfat işlərinə yaxşı bələd olduğum üçün pomidorun gəlir gətirən tərəvəz olduğunu da bilirəm. Lakin onu ərsəyə gətirmək böyük zəhmət tələb edir, – desəm yanılmaram. Hədər yerə deyilməyib: "Cəfa çəkməyən səfa görməz". Ümumiyyətlə, təsərrüfat işi ilə məşğul olmaq asan deyil. Yəni bu sahədə tək bir insanın zəhməti ilə uğur qazanmaq mümkünsüzdür. Elə buna görə də ailə üzvlərimin dəstəyindən faydalanıram. Şükürlər olsun ki, çəkdiyimiz zəhmət hədər getməyib. Buna misal olaraq deyim ki, ötən ilin yazında 2 hektar ərazidə pomidor əkdik. Əldə olunan məhsulu bazara çıxardıq və yaxşı gəlir qazandıq. Məhsulun qiyməti aşağı düşən zaman pomidordan tomat istehsal etməyə başladıq. 11 min bankadan artıq tomat satıldı. Alıcı çox olduğundan gəlir də ürəkaçan oldu. Məhz buna görə də bu il daha çox pomidor yetişdirmək niyyətindəyik.



Fermer deyir ki, ötən il əkin sahəsinin 4 hektarlıq hissəsində qarpız əkini də aparıb. Ümumiyyətlə, hamıya məlumdur ki, Nehrəm kəndinin bazarda ən tanınmış məhsulu qarpızdır. Kəndin sakinləri bu bostan məhsulunu necə yetişdirməyi çox gözəl bilirlər. Ona görə də mövsüm zamanı hər kəs Nehrəm qarpızından dadmağa çalışır. Fermer Cəmşid Həsənov da qarpız yetişdirməyi yaxşı bacarır. Deyir ki, ötən ildə əvvəlki illərdə olduğu kimi, bol məhsul götürüb və sərfəli qiymətə sata bilib. Havalar soyumağa başlayanda isə təsərrüfatda qarpız turşusu hazırlanıb. Həftə sonları təşkil olunan yarmarkalarda bu turşular vitrinləri bəzəyib. Ümumilikdə, pomidor, xiyar və qarpız məhsullarından 400 banka turşu hazırlayıb bazara çıxaran fermer bu il turşu bankalarının sayını minə çatdıracaqlarını deyib.

Öyrəndik ki, təsərrüfat sahibi ötən ilin yazında pomidor yetişdirdiyi 2 hektar ərazi də daxil olmaqla, payız aylarında, ümumilikdə, 70 hektardan çox sahədə taxıl əkini aparıb. Deyir ki, yaxşı qulluq eləsəm, ərazidən 40-45 sentner məhsul götürə bilərəm. Su sarıdan da korluq çəkmədiklərinə görə təsərrüfat sahibinin uğur qazanacağına əminlik yaranır. Fermerin təsərrüfat işi bununla bitmir. O həm də meyvə tinglərini əkib, onlara qulluq etməyi də yaxşı bacarır. Elə bu səbəbdəndir ki, ötən il təsərrüfatın ərazisində 300-dən artıq badam tingi salıb, cari ildə bu tinglərin sayını daha da artırmağı planlaşdırır. Gələcəkdə ərazisində üzüm və göycə tingləri də əkib-becərmək niyyətindədir.

Həmsöhbətim onu da dedi ki, hansı işlə məşğul olmasından asılı olmayaraq, gərək hər işdə halallıq ola. Yəni, necə deyərlər, el gözü tərəzidir. Düzgün iş tutsan, müştərini yaxşı qarşılasan, ən əsas da məhsula münasib qiymət qoysan, yaxşı da gəlir qazanarsan. Atalar sözündə də deyildiyi kimi "Haram malın bərəkəti olmaz".

**Nail ƏSGƏROV**

**Şamil Qazıyev — 110**

# Naxçıvan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi



***Azərbaycanın tanınmış rəssamı, SSRİ Rəssamlar İttifaqının üzvü, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Şamil Qazıyevin yaradıcılıq fəaliyyəti Azərbaycan incəsənətinə sədaqətlə xidmətin gözəl nümunəsidir. Bu il böyük sənətkarın anadan olmasının 110 illiyi tamam olur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci il 1 fevral tarixli Sərəncamı onun yaradıcılığına verilən yüksək qiymət kimi sənətsevərlər tərəfindən böyük sevinc və rəğbətlə qarşılanmışdır.***

Şamil Həsən oğlu Qazıyev 30 mart 1908-ci ildə qədim Azərbaycan şəhəri İrəvanda müəllim ailəsində anadan olmuş və ilk təhsilini burada almışdır. Onun babası Axund Xəlil Kərim oğlu Qazızadə (1815-1884) 17 il İrəvan Quberniyası Ruhani Məclisinin sədri olmuş, atası Həsən bəy Qazıyev isə keçən əsrin 20-50-ci illərində Naxçıvanda maarifin inkişaf etdirilməsində böyük xidmətlər göstərmişdir. Bu, həmin Həsən bəy Qazıyev idi ki, ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının yaradılmasının 75 illiyinə həsr olunmuş yubiley iclasında Naxçıvan Pedaqoji Texnikumunda oxuduğu illəri xatırlayaraq demişdi ki, o vaxt Həsən bəy Qazıyev mənə rus dilini yaxşı öyrətdi.

Həsən bəy Qazıyev 1900-cü ildə İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra 9 ilədək İrəvan Quberniyasının Uluxanlı, Nehrəm və Yengicə kənd məktəblərində və İrəvan rus-tatar məktəbində müəllimlik etmiş, 1909-cu ildən 1919-cu ilədək isə İrəvan Dövlət Vergi Palatasında və İrəvan Qəza İnspektorluğu Dəftərxanasında mühasib köməkçisi və kargüzar vəzifələrində işləmişdir. 1918-1920-ci illərdə erməni daşnaklarının İrəvanda törətdikləri vəhşiliklər nəticəsində o, ata yurdunu tərk etməyə məcbur olmuş, Naxçıvan şəhərində özünə sığınacaq tapmışdır.

Şamil Qazıyev 12 yaşında ikən ailəsi ilə Naxçıvana köçdükdən sonra orta təhsilini burada başa vurmuş, 1924-cü ildə isə Bakı Rəssamlıq Məktəbinə qəbul olunaraq, 5 il həmin məktəbdə təhsil almışdır. Təhsil illərində yaradıcılığa başlayan gənc rəssam həmin məktəbi bitirdikdən sonra 1929-1932-ci illərdə atası Həsən bəylə eyni vaxtda Naxçıvan Pedaqoji Texnikumunda rəsm müəllimi işləmişdir. "Naxçıvan Zikur Texnikumunun ilk buraxılışı" (o vaxt Naxçıvan Pedaqoji Texnikumu belə adlandırılırdı) kitabçasından aydın olur ki, bu texnikum həmin illərdə gənc müəllim kadrları hazırlayan nüfuzlu tədris müəssisəsi idi. Şamil Qazıyevin iki il qaynar ictimai-pedaqoji mühitə malik olan bu tədris ocağında fəaliyyət göstərməsinin tələbələrin incəsənətə marağının artırılmasında xüsusi əhəmiyyəti olmuşdur. 1932-ci ildə Xalq rəssamı Əzim Əzimzadənin dəvəti ilə Bakıya gedən istedadlı rəssam 1934-cü ilədək iki il "Kommunist" qəzetində rəssam kimi fəaliyyət göstərmişdir. Sonralar Şamil Qazıyev "Şərq qapısı" qəzetinin rəssamı və Naxçıvan teatrının baş rəssamı (1934-1948) işləyir. 1939-cu ildə onu teatrda baş rəssam işləyə-işləyə həm də Naxçıvan Rəssamlıq məktəbinə direktor təyin edirlər. O, burada cəmi bir il işləyir və rəssamlığa həvəsi olan gənc kadrların yetişdirilməsi üçün səy göstərir. Hətta ulu öndər Heydər Əliyev də gənc yaşlarında rəssamlığın sirlərini Şamil Qazıyevin dərnəyində öyrənmişdir.

XIX əsrin 80-ci illərində təşəkkül tapan Naxçıvan teatrının XX əsrin 30-40-cı illərində tərəqqi mərhələsinə qədəm qoymasında istedadlı sənətkarın özünəməxsus töhfələri olmuşdur.



Ş.Qazıyev. "Köhnə Naxçıvan"



Ş.Qazıyev. "Qalayçılar"

1971-ci ildə bizim xahişimizlə Şamil Qazıyevin Naxçıvan teatrındakı fəaliyyəti haqqında yazdığı xatirələrdən oxuyuruq: "1934-cü ildə Azərbaycan SSR-in Xalq artisti Sidqi Ruhulla məni teatra rəssam vəzifəsinə təyin etdi və onunla "Hacı Qara", "Namus" tamaşalarına tərtibat verdim". Sonra rəssam qeyd edir ki, o, 1934-1948-ci illərdə Naxçıvan teatrında Həsən Ağayev, Səməd Mövləvi, Məcid Zeynalov, İbrahim Həmzəyev kimi rejissorların quruluş verdiyi "Lyubov Yarovaya", "Hamlet", "Otello", "Günahsız müqəssirlər", "Sərgüzəşti-vəziri-xani-Lənkəran", "Xırs quldurbasan", "Pəri cadu", "Nadir şah" kimi yüzdən çox tamaşaya bədii tərtibat vermişdir. Həmin xatirə "Səmərəli yaradıcılıq illəri" sərlövhəsi altında 2014-cü ildə çap etdirdiyimiz "Naxçıvan teatrı. Məqalələr, xatirələr" kitabına daxil edilmişdir.

Şamil Qazıyevin tərtibatlarının səhnəyə qoyulan əsərlərin ideyasının tamaşaçılara çatdırılmasında xüsusi əhəmiyyəti olmuşdur. Azərbaycan və dünya dramaturqlarının əsərləri tamaşaya hazırlanarkən o həm milli koloritə üstünlük vermiş, həm də tarixilik və müasirlik tələblərini nəzərə almışdır.

İstedadlı sənətkar təkcə teatrda rəssamlıq etməklə kifayətlənməmişdir. Onun müxtəlif illərdə işlədiyi etüd, natürmort, portret və qrafik əsərləri də vardır. Bu əsərlərin bir qismində ("Biçinçilər", "Örtülü bazar", "Molla məktəbi", "Nalbənd", "Qalayçılar", "Qaçqınlar", "Çörək bişirən qadınlar" və sair) Azərbaycan xalqının məişəti, həyat tərzi, etnoqrafik özəllikləri, digərlərində isə ("Xıncov məhəlləsi", "Əlincəqala", "Köhnə Naxçıvan", "Beşqardaş dağı", "Sıldırım dağ", "Dağların simfoniyası") Naxçıvanın tarixi və təbii gözəllikləri öz əksini tapmışdır. Bu əsərlər müəllifin məşhur Azərbaycan rəssamı Bəhruz Kəngərli məktəbinin layiqli davamçısı olduğunu göstərir.

Şamil Qazıyevin SSRİ rəssamlarının 1931-ci ildə Tiflisdə keçirilmiş sərgisində nümayiş etdirilən "Çoban" portreti Moskvada Tretyakov qalereyasında nümayiş etdirilir. Bu əsərlərin çoxu Naxçıvan Dövlət Tarix Muzeyində qorunur və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin sərgi salonunun ekspozisiyasını bəzəyir.

Böyük sənətkar 1948-ci ildə Bakıya köçmüş və ömrünün sonunadək burada nəşr olunan "Azərbaycan gəncləri" qəzetinin rəssamı olmuşdur. O, Bakıda yaşadığı illərdə də qədim Naxçıvan diyarını unutmamış, tez-tez buraya səfərlər etmiş, yerli rəssamlarla yaradıcılıq əlaqələri saxlamışdır. Bu baxımdan ustad rəssamın 1975-ci ildə yazdığı məktubundan bir məqamı xatırlatmaq yerinə düşər: "Maketləri Naxçıvanın 50 illiyi münasibəti ilə hazırlamışdım ki, Naxçıvan rəssamlarının orada sərgisi olacaq. Həmin maketlər Azərbaycan Bədii Fondu tərəfindən qiymət olunub. Hal-hazırda Bədii Fonddadır: "Şeyx Sənan", "Od gəlini", "Namus", "Anzor". Ədəbiyyat muzeyinin direktoru Bədii Fondun direktoruna məktub yazmalıdır ki, buradan işləri onlara göndərsinlər".

Görkəmli rəssam harada işləməsindən asılı olmayaraq, öz sənətini gündən-günə təkmilləşdirərək səmərəli yaradıcılığı ilə diqqəti cəlb etmişdir. O, 13 iyul 1980-ci ildə Bakı şəhərində vəfat etmişdir. Rəssamın övladları Azərbaycan Respublikasının Əməkdar rəssamı Arif və heykəltəraş Vaqif Qazıyevlər tanınmış incəsənət xadimləri kimi ustad sənətkarın yolunu uğurla davam etdirirlər.

Naxçıvanda Şamil Qazıyevin sənətinə hələ sağlığında xüsusi qayğı və diqqət göstərilmişdir. Keçən əsrin 40-cı illərində təsis edilən "Naxçıvan MSSR Əməkdar incəsənət xadimi" fəxri adı 1944-cü ildə ilk dəfə Şamil Qazıyevə verilmişdir. 1978-ci ildə onun Naxçıvan şəhərində fərdi sərgisi keçirilmişdir. 2010-cu ildə 56 əsəri daxil edilən albom-kataloq da Naxçıvanda hazırlanmış və çap edilmişdir. Şamil Qazıyevin həyat və yaradıcılığı haqqında "Naxçıvan ensiklopediyası"nda da məlumat öz əksini tapıb.

*"Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı 2018-ci il 1 fevral tarixli Sərəncam görkəmli rəssamın həyat və fəaliyyətinin, yaradıcılığının, dəyərli sənət irsinin tədqiqi və təbliği baxımından əhəmiyyətli rol oynayacaq.*

**Fərman XƏLİLOV**
***filologiya üzrə elmlər doktoru***

# Naxçıvan Biznes Təlim Akademiyasının fəaliyyəti razılıq doğurur

***Naxçıvan Biznes Təlim Akademiyası 2017-ci ildə fəaliyyətə başlayıb. O, şirkətlərə və fərdi şəxslərə müxtəlif növ təlimlər və konsaltinq xidmətləri təklif edir. Burada biznesə yeni başlamaq istəyənlər üçün məsləhət xidməti, biznes planların hazırlanması, təqdimat mərasimlərinin təşkili qaydaları, fərdi inkişaf təlimləri, eləcə də gənclər və qadınlar üçün müxtəlif inkişaf proqramları öyrədilir. Akademiyanın fəaliyyəti ilə yaxından tanış olmaq üçün yeni qurumun təlimçisi Sevinc Cabbarova ilə həmsöhbət olduq.***

O bildirdi ki, insanlar, eyni zamanda individual kouçinq xidmətlərdən də yararlanır. Kouçinq şəxsin potensialının kəşf olunması, özünəinamın və motivasiyanın artırılması, bacarıq və imkanlarının inkişaf etdirilməsi, ona mane olan sərhədlərin aradan qaldırılması deməkdir.

İslahatlar nəticəsində son zamanlar Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafının yeni müstəviyə qədəm qoyduğu müşahidə olunur. İstər kiçik və yeni qurulmuş, istərsə də böyük təcrübəyə malik bütün şirkətlərin hər zaman biznes təlimlərə ehtiyacı vardır. Biznes dinamik dəyişən mühit olduğu üçün yeniləşmədən geri qalmamaq, yenilikləri mənimsəmək vacib amillərdir.

"Heç şübhəsiz ki, hər bir insanın daxilində özünəməxsus qabiliyyət və bacarığı vardır. Amma insanların çoxu özünəinamı bərpa etməkdə çətinlik çəkir, həyatda böyük hədəflər qoymaqdan qorxurlar. Bunun səbəbi, əsasən, gündəlik maddi qayğılar, ailəvi problemlər və sair olur" – deyən Sevinc Cabbarova qeyd edir ki, hamı öz bacarığının fərqinə varmalı, onu inkişaf etdirməli və sahəsi üzrə peşəkar mütəxəssis olaraq özünü yetişdirməlidir. Özünəinam, motivasiya, düzgün peşə seçimi, böyük uğurlar qazanmaq, məqsədyönümlü olmaq və əlaqədar mövzularla maraqlanan və bunları praktik tətbiq etmək istəyən insanlar üçün də akademiyada təlimlər təşkil edilir. İstəyən şəxslər bu təlimlərdə iştirak edə bilərlər.

Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı, iqtisadi durumu və tərəqqisi əhalinin, xüsusən də gənclərdə fərdi mədəniyyətin və təfəkkürün inkişafını şərtləndirir. Yeniliyə, insan potensialının inkişafına ehtiyacı olan bu təbəqəyə gələcək fəaliyyətlərinin genişləndirilməsi məqsədilə vacib olan biliklərin təlimlər yolu ilə mənimsədilməsi bir şərt kimi meydana çıxır.

Sevinc Cabbarova onu da vurğuladı ki, fəaliyyətimizin məqsədi ölkəmizdə aparılan gənclər siyasətinə əsasən gənclərin özünü inkişafetdirmə qabiliyyətini artırmaq, daim inkişaf edən cəmiyyətimizdə öz yerini tapmaq və muxtar respublika üçün müasir dinamik həyata uyğunlaşmaq və nəticədə, öz potensialından daha səmərəli istifadə etməklə iqtisadi baxımdan güclü cəmiyyət formalaşdırmaqdır. Buna görə gənclər üçün fərdi inkişaf təlimləri keçirilir. Kiçik biznesə başlamaq istəyənlər üçün biliklərin dərinləşdirilməsi, biznes-planın hazırlanması, kompüter proqramlaşdırılması üzrə bacarıqların formalaşdırılması, gənclərdə ünsiyyətqurma bacarığının təkmilləşdirilməsi, özünüifadəetmə qabiliyyətinin formalaşdırılması, düzgün hədəf seçmək və ona çatmaq üçün maneələrin aradan qaldırılması bacarıqlarının inkişaf etdirilməsi, iş yerlərinə müraciət və özünü təqdimetmə, komanda şəklində işləmək bacarıqlarının və işgüzarlıq keyfiyyətlərinin formalaşdırılması həmin inkişaf təlimlərindəndir.

Akademiya tərəfindən muxtar respublikamızda fəaliyyət göstərən ali və peşə təhsili ocaqlarının tələbə elmi cəmiyyətləri ilə gəncləri maarifləndirmək məqsədilə görüşlər təşkil edilir. Təlimlər, əsasən, istirahət günlərində, hər biri 3 saat olmaqla keçirilir.

Bəs insanlar bu təlimlərin faydasını necə görür və özlərində nə kimi dəyişikliklər hiss edirlər? – sualımızı Sevinc Cabbarova belə cavablandırdı: Gənclərdə fərdi inkişaf naminə elm və biliyə həvəs artır, təlimlər onların kreativ bacarıqlarının inkişaf etdirilməsinə təkan verir. Qısa zaman ərzində gənclər onlarda aktiv həyat tərzinə və özünü inkişaf yollarının aşılanmasına maraq oyandığını hiss edirlər.

Öyrəndik ki, akademiyanın kollektivi öz fəaliyyət istiqamətlərini genişləndirmək barədə də düşünür. Təlimlərin mövzu dairəsini bir qədər də şaxələndirib muxtar respublikanın digər bölgələrində də insan potensialının inkişafının təbliği məsələlərinə dair maarifləndirmə işlərini davam etdirmək üçün buklet və bülletenlərin hazırlanıb paylanmasını nəzərdə tutub. "İnkişaf etmiş cəmiyyət inkişaf etmiş gənclərdən başlayır" şüarını əsas tutan bu layihə gənclərin maariflənməsi baxımından çox əhəmiyyətlidir. Bölgələrdə yaşayan gənclərin məşğələ və təlimlərdə iştirakının məhdudluğunu nəzərə alıb, bu seminar çərçivəsində əldə olunan təcrübəni və təhlilləri dəyirmi masa və görüşlərdə tətbiq etməyi qarşıya məqsəd qoyub. Bu isə gənclərin ictimai dialoqlarda və güclü cəmiyyət formalaşdırma proseslərində fəal iştirakını təmin etməklə bərabər muxtar respublikamızın insan potensialının inkişafını təmin etməyə stimul yaradacaqdır.



Təlimlərdə milli-mənəvi dəyərlərin təbliği diqqət mərkəzində saxlanılır. Məsələn, hədəf və düzgün məqsəd qoyma təlimində iştirakçılar hədəf yazarkən, mütləq belə sualla qarşılaşırlar. "Sənin hədəflərin içində milli dəyərlərimizə uyğun olanlar hansılardır?" Sevinc Cabbarova deyir ki, kollektiv gənclərlə onların başa düşdüyü tərzdə danışmağa, yəni interaktiv, mobil və aktiv təlimlər keçirməyə üstünlük verir. Buna görə də yaxşı nəticələrə nail olunur. Bu nəticə ilə muxtar respublikamız üçün fəal gənclərin müxtəlif sahələrdə öz potensialından səmərəli istifadə etməklə, iqtisadiyyatımıza və regionumuza fayda verəcəklərinə əminlik yaranır.

Təlimçinin sözlərinə görə, 5 moduldan ibarət olan "Fərdi inkişaf" proqramı davam edir.

Qeyd edək ki, "Fərdi inkişaf" Sevinc Cabbarova tərəfindən hazırlanmış müəllif proqramıdır. Burada 20 faiz nəzəriyyə, 80 faiz isə praktik cəhətdən iş nəzərdə tutulub. Keçən il bu proqramı 10 nəfərə yaxın iştirakçı bitirib, setrifikat alıb.

**✍ Fatma BABAYEVA**

# Ümumrespublika fənn olimpiadasının birinci mərhələsi keçirilib

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin xətti ilə ümumrespublika fənn olimpiadasının birinci mərhələsi keçirilib.*

Olimpiada muxtar respublikanın bütün rayon mərkəzlərindəki tam orta məktəblərində təşkil olunub. Naxçıvan şəhərində isə 14 nömrəli məktəbdə keçirilib.

Olimpiadada muxtar respublika üzrə 652 şagird iştirak edib. Onlar 8 fənn – Azərbaycan dili, ədəbiyyat, riyaziyyat, kimya, biologiya, coğrafiya, tarix və informatika üzrə öz biliklərini sınayıblar.

Sualları cavablandırmaq üçün iştirakçılara dəqiq fənlər üzrə 180, humanitar fənlər üzrə isə 90 dəqiqə vaxt verilib.

Qeyd edək ki, olimpiadanın birinci turunda göstərdiyi nəticələr qənaətbəxş hesab edilən iştirakçılar yarımfinala vəsiqə qazanacaqlar.

**Xəbərlər şöbəsi**

# Oxucu məktubları

*Hörmətli redaksiya!*

*Qədim yurdumuz Naxçıvanın gündən-günə gözəlləşib, çiçəklənməsi hamı kimi məni də çox sevindirir. Son iki onillikdə doğma diyarımızda çox böyük, diqqətəlayiq işlər görülüb. 10-15 il əvvəl buradan ayrılan insan, yəqin ki, indi Naxçıvanı görsə, tanımaz. Paytaxt şəhərimizlə yanaşı, kəndlərimiz də simasını dəyişib, inşa olunan və ya əsaslı şəkildə bərpa edilən müasirtipli təhsil, mədəniyyət, səhiyyə ocaqları, digər sosial-mədəni obyektlər bu qədim torpağı daha da cazibədar edib.*

## Mədəniyyət yoldan başlanır



Mən uzun illərdir ki, sürücü işləyirəm. İllər əvvəl kəndimizin yollarının tozlu-torpaqlı olması həm sürücülər, həm də sərnişinlər arasında ciddi narazılıqlar yaradırdı. Muxtar respublikada geniş vüsəti ilə diqqəti çəkən tikinti-quruculuq tədbirlərinin tərkib hissəsini təşkil edən yol infrastrukturunun yeniləşməsinə göstərilən qayğı hesabına bu problem artıq öz həllini tapıb. Yollarımızda geniş təmir işləri aparılıb, su keçidləri, körpülər tikilib. İndi digər bölgələrimiz kimi, Şərur rayonunun Arazqırağı, ucqar dağ kəndlərinə də gediş-gəliş xeyli asanlaşıb.

Yeri gəlmişkən qeyd edim ki, dördzolaqlı yollarda eyni vaxta 4 avtomobil maneəsiz hərəkət edə bilir. Yolların kənarında avtomobillərin hərəkətini tənzimləyən müvafiq yol nişanları qoyulub. Həmçinin suötürücülər, arxlar da çəkilib ki, bu da yolun asfalt örtüyünü yağış və qar sularından mühafizə etməklə yanaşı, biz sürücülərin də işini asanlaşdırır. Yolların kənarında salınan yaşıllıqlar isə, sözün əsl mənasında, göz oxşayır. Bütün bunlar yurdumuza gözəllik verir, həm də insanlara rahatlıq gətirir. Bir vaxtlar qaryağış yağanda dağ kəndlərimizin şəhərlə əlaqəsi, demək olar ki, tamamilə kəsilirdi. Bu gün isə bu problemlərin, qayğıların heç birini yaşamırıq. Hansı fəsil olursa-olsun, getmək istədiyimiz ünvana vaxtında çatırıq. Sərnişin də rahat olur, sürücü də.

Onu da deyim ki, sərnişinlərin hamısı bir fikirdədir: Naxçıvan cənnətə dönüb. Ona görə də qurub-yaradan əllərə alqış deyirəm.

**Rəhim MƏDƏTOV**
***Şərur rayonunun Çomaxtur kənd sakini***

## Doğma kəndim Gərməçataq müasirliyi ilə düşmənə gözdağıdır



***Hörmətli redaksiya!***

Gərməçataq kəndi Babək rayonunun səfalı yaşayış məntəqələrindən biridir. Yayda, yazda bu yerlərin təbiəti insanın ruhunu riqqətə gətirir. Elə buna görə də Gərməçataq ötən əsrin 90-cı illərində erməni xislətindən, mənfurluğundan əziyyət çəkən kəndindən biri olub. O illərdə ailəmizi-uşağımızı aşağı kəndlərə göndərib günlərlə səngərdə növbə ilə keşik çəkmişik. Özü də tək biz yox. Muxtar respublikamızın digər bölgələrindən gələn qeyrətli oğullar da bu kəndin köməyinə çatdılar. Min bir əziyyət çəkmişik, gecəni gündüzə qatmışıq, amma bu kəndə düşmən ayağının dəyməsinə imkan verməmişik. Bu hadisələr o zaman cərəyan edirdi ki, ölkəmiz ağır günlər yaşayırdı. O illərdə doğma torpağına – Naxçıvana qayıdan xalqımızın böyük oğlu Heydər Əliyev bu yurdu erməni işğalından qorudu, hifz etdi.

Bir zamanlar qorxu-hürkü ilə yaşadığımız kənddə artıq əmin-amanlıq, sabitlik hökm sürür. İndi qüdrətli ordumuzun mətin oğulları əldə silah bu elin, bu yurdun keşiyini çəkirlər. Ayıq-sayıq əsgərlərimiz tərəfindən müdafiə olunan kəndimizdə, eyni zamanda inkişaf, yenilik də var. Ötən ay – soyuq qış günlərinin birində isti duyğular, xoş anlar nəsibimiz oldu. Dekabr ayının 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə kəndimizdə tam orta məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verildi. Onu da deyim ki, yaradılanlar-qurulanlar təkcə zahiri gözəllik deyil, həm də insanların yaşayışına müsbət mənada dərindən sirayət edən bir amildir. Çünki Gərməçataqda yeni iş yerləri açılıb, sakinlərin məşğulluğu təmin edilib. Yaxşı yaşayış, gün-güzəran illər öncə kəndimizi tərk edənlərin də doğma yurda qayıtmasına səbəb olub. Sərhədləri qorxmaz oğullar hesabına qorunan, mərkəzində birbirindən yaraşıqlı binalar ucaldılan dağ vüqarlı, zəhmətkeş insanları ilə seçilən sərhəd kəndi Gərməçataq bu gün düşmənə gözdağıdır. Sağ olsun qurub-yaradanlar, təşkilatçılar. Onlar bizə xoş gün-güzəran, ruh yüksəkliyi bəxş ediblər. Kənd sakinləri adından dövlətimizə minnətdarlığımı çatdırmaqla bildirmək istəyirəm ki, bu dövlət qayğısına öz əməli işimizlə cavab verəcək, muxtar respublikamızın inkişafında köməyimizi əsirgəməyəcəyik.

**Mətləb MİRZƏYEV**
**Gərməçataq kənd sakini**

## Övladımı mənə yenidən qaytardılar

Oğlum Rəşad anadan olandan ürəyindəki qüsurdan əziyyət çəkirdi. Təngnəfəslik, tez-tez boğulmalar, göyərmələr onu əldən salırdı. Elə yerimənəyinin səbəbi də ürəyindəki qüsurla bağlı idi. Ona fallo-tetradası diaqnozu qoymuşdular. Müalicə edilirdi, lakin bu, müvəqqəti idi. Övladım hökmən əməliyyat olunmalı idi, əks təqdirdə, həyatını itirə bilərdi. Bunun üçünsə xeyli vəsait lazım idi. Düşünürdüm ki, biz bu vəsaiti bir yerə toplayana kimi övladım yaşayacaqmı?

Yanvar ayının 14-də Naxçıvan Diaqnostika-Müalicə Mərkəzindən zəng edib bildirdilər ki, Bakı şəhərindəki Mustafa Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzinin nəzdindəki Uşaq Ürək Cərrahiyyə Mərkəzinin həkimləri ödənişsiz müayinələr və açıq ürək əməliyyatları aparmaq üçün Naxçıvana gəliblər. Təcili gəldik. Həkimlər tərəfindən uşaq müayinə edildi, əməliyyat günü təyin olundu. Bir neçə saat davam edən əməliyyat uğurla başa çatdı. Övladımı əməliyyat edən xeyirxah aksiyanın rəhbəri, tibb üzrə fəlsəfə doktoru Elnur Həsənov məni təbrik edərək dedi: "Sanki bir kəpənəyin ürəyini əməliyyat etdik".

Bu günlər sevincimin həddi-hüdudu yoxdur. Rəşad özünü çox yaxşı hiss edir. Mən ailəm adından bu aksiyanın təşkilatçılarına dərin minnətdarlığımı bildirirəm. Onlar mənə övladımı yenidən qaytardılar. Əməliyyat bir yaşını qeyd edəcəyimiz Rəşadın ad gününə həkimlərin ən böyük hədiyyəsi oldu.

**Aybəniz MƏMMƏDZADƏ**
***Şahbuz rayonunun Ağbulaq kəndi***

## Təhsilimiz üçün hər cür şərait yaradılıb

***Hörmətli redaksiya!***

Mən 9-cu sinif şagirdiyəm. Naxçıvan şəhərindəki Qızlar Liseyində oxuyuram. Təhsil aldığım məktəbdə yaxşı dərs şəraiti yaradılıb. Biz yeni, müasir standartlara cavab verən, müxtəlif avadanlıqlarla təchiz olunmuş məktəbdə təhsil alırıq. Ən əsası isə dərslərimiz ixtisaslı, yüksək peşəkarlıq qabiliyyəti olan müəllimlər tərəfindən aparılır.



Bildiyiniz kimi, muxtar respublikada bütün dərsliklər pulsuzdur. Babam həmişə deyir ki, biz belə yaraşıqlı, yaxşı şəraiti olan məktəblərdə təhsil almamışıq, hətta o dövrdə bir kitabdan bir neçə nəfər istifadə etmək məcburiyyətində qalırdı. Deyir ki, qış aylarında indiki məktəblərin yanından keçərkən xəyalım məni uzaqlara, şagird olduğum illərə aparır. Gözümdə o illər canlanır. Ən çox da sinifdə yanan soba...

Düzdür, mən o günləri görməmişəm, şahidi olmamışam, amma babamın dediyinə görə, xüsusilə qış aylarında dərs keçməkdə çətinlik çəkirmişlər. Siniflər soyuq olurmuş. Siniflərdə sobalar yandırılsa da, otaqlar kifayət qədər isti olmazmış. Nənəm isə deyir ki, həmin köhnə sobalar ucbatından uşaqlar hər gün dərsdən gələndə paltarları yuyulmalı olurdu.

Vaxtaşırı valideynlərim, nənə-babalarım bunları bizə danışır və bu gün bizim üçün yaradılan şəraitdən maksimum dərəcədə istifadə etməyimizi, dərslərimizi yaxşı oxumağımızı nəsihət edirlər. Haqlıdılar. Mən də çalışıram ki, bu şəraitdən mümkün qədər yararlanım, yüksək nəticələr qazanım. Dərslərimi yaxşı oxuyuram. Keçirilən sınaq imtahanlarında, fənn olimpiadalarında da iştirak edir, yüksək yerlər tuturam. Bu yaxınlarda keçirilən fənn olimpiadasının muxtar respublika turunda birinci yerə layiq görüldüm. Valideynlərimə, müəllimlərimə, bizim üçün bu şəraiti yaradanlara söz verirəm ki, bu uğurlarım davamlı olacaq.

**İnci ŞİRİNOVA**
***Naxçıvan Qızlar Liseyinin***
***IX sinif şagirdi***

# *İdman*

## Boksçumuz ölkə birinciliyində mükafat qazanıb

***Böyüklər arasında boks üzrə Azərbaycan çempionatı başa çatıb.***

Bakı Boks Mərkəzində təşkil olunan yarışda 10 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib. Çempionatda respublikanın müxtəlif şəhər və rayonlarının klublarını, həmçinin idman cəmiyyətlərini təmsil edən 39 komandanın 203 boksçusu mübarizə aparıb.

Keçirilən çempionatda Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının da yetirmələri iştirak ediblər. 6 gün davam edən yarışda ən yüksək nəticəni 60 kiloqram çəki dərəcəsində mübarizə aparan İbrahim Cəfərzadə qazanıb. Belə ki, dəri əlcək sahibimiz ilk turda Cəbi İsayevi mübarizədən kənarlaşdırıb. Ardınca boksçumuz Qəbələ İdman Klubunun idmançısı Vüsal Verdiyev və Masallı boksçusu Süleyman Süleymanlını məğlub edib. Bu qələbələr onun yarımfinala yüksəlməsinə şərait yaradıb. Finala gedən yolda İbrahim Cəfərzadə Cavid Çələbiyevə məğlub olub və Azərbaycan çempionatının bürünc medalını qazanıb.

Sonda idmançımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunub.

Qeyd edək ki, mükafatçılar yığmanın heyətinə cəlb olunacaq və beynəlxalq yarışlarda ölkəmizi təmsil edəcəklər.

## Qaliblər mükafatlandırılıb



Naxçıvan şəhər İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbində gənclər arasında (2001-2003-cü illər) keçirilən sərbəst güləş üzrə Naxçıvan şəhər birinciliyinə yekun vuruldu.

Birincilikdə 8 çəki dərəcəsi üzrə 40 güləşçi mübarizə aparıb. Yarış Beynəlxalq Güləş Federasiyasının mövcud qaydalarına uyğun olaraq keçirilib. Yekun nəticəyə əsasən Turqay Allahverdiyev, Hüseyn Əhmədli, Kərəmət Xudiyev, Abbas Nəzərəliyev, Muxtar İbrahimov, Anar Həsənov, Rəvan Bayramov və Qoca Əhmədov müvafiq olaraq 45, 48, 51, 55, 60, 65, 71 və 80 kiloqram çəki dərəcələrində bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda hər çəki dərəcəsində I, II və III yerləri tutan idmançılara Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

## Futbolun kütləviliyinə nail olunur

Naxçıvan Muxtar Respublikasında uşaq, yeniyetmə və gənclərin idmana cəlbi, onların asudə vaxtlarının səmərəli təşkili, istedadlı idmançıların üzə çıxarılması daim diqqət mərkəzində saxlanılır. Bunun üçün mütəmadi olaraq Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi şəhər və rayonlarda, kəndlərdə müxtəlif idman tədbirləri həyata keçirir.

Belə tədbirlərdən biri də Şərur rayonunda təşkil olunub. Uşaqların futbola cəlbi məqsədi daşıyan məşqdə 60-dan çox uşaq futbolçu iştirak edib. Əsasən, 2006-2010-cu illər təvəllüdlü uşaqların iştirak etdiyi məşqin əsas məqsədi onlar arasında futbolun kütləviliyinə nail olmaq, istedadlı uşaqları seçmək və onları "Araz-Naxçıvan" futbol komandasının uşaq komandalarına cəlb etməkdən ibarət olub. Sakit Rzayev, Rəşad Heydərov, Yunis Məhərrəmov və Şəhriyar Məmmədov tərəfindən aparılan məşqlərdə təkcə Şərur şəhərindən deyil, eyni zamanda rayonun bir sıra kəndlərindən də uşaqlar iştirak ediblər.

Qeyd edək ki, bu cür məşqlər qarşıdakı aylarda digər rayonlarda da davam etdiriləcəkdir.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 112